**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# EMAL SƏNAYESİNDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN RƏQABƏTƏDAVAMLI İNKİŞAF STRATEGİYASININ YARADILMASI MEXANİZMLƏRİ

İxtisas: **5312.01 - Sahə iqtisadiyyatı**

Elm sahəsi: **İqtisad elmləri**

İddiaçı: **Rafiq Hümbət oğlu Qarayev**

Fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə - 2022**

Dissertasiya işi Azərbaycan Dövlət Neft və Sənaye Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Qəzənfər Salman oğlu Süleymanov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Xatirə Mail qızı Hüseynova**

iqtisad elmləri namizədi, dosent
**Nüşabə Aslan qızı Hacıyeva**

iqtisad elmləri namizədi, dosent
**Raibə Məmmədbağır qızı Cəfərova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Prezidenti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən ED 2.42 Birgə Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ______ AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ______ iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: ______ Əməkdar kənd təsərrüfatı işçisi, iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qloballaşan dünyada beynəlxalq meyarlara uyğun güclü dövlət kimi inkişaf etmək yalnız rəqabətədavamlı, dayanıqlı və davamlı inkişaf edən açıq iqtisadi sistemin idarə olunması ilə mümkün ola bilər.

Məhz buna görə ki, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə,o cümlədən 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" və "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetler" "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi" (2016-cı il) və s. üzrə fərmanlar verilmiş və digər normativ-hüquqi sənədlər qəbul edilmişdir. Bu proqramlar və konsepsiyalarda qeyri-neft sektorunun qabaqlayıcı inkişafına nail olmağı, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmağı, innovasiyanı milli iqtisadiyyatın dayanıqlı inkişafının əsas amili götürməyi, regional iqtisadiyyatın dinamik inkişafını, o cümlədən emal sənayesi də sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişaf strategiyasının formalaşmasını və regionlarda sənaye məhəllələrinin yaradılmasını əsas hədəf və məqsəd kimi qarşıya qoyur.

Respublikada aparılan məqsədyönlü islahatların nəticəsidir ki, son 2010–2020-cı illərdə qeyri-neft sektorunun dinamik inkişafı davam etmiş və onun real artım faizi, ümumi artım faizini üstələyərək 7,6%, o cümlədən emal sənayesində 6,6%, rabitədə 29,7%, nəqliyyatda yük daşıması 3,1% təşkil etmişdir.

Nəticə olaraq Dünya İqtisadi Forumu tərəfindən 2020-ci ildə üzrə hazırlanmış «Qlobal Rəqabətlilik Hesabatı»nda Azərbaycan MDB ölkələri arasında birinci, makroiqtisadi sabitlik indeksi üzrə 190 ölkə arasında 28-ci yerdə qərarlaşmışdır.

Bütün bunlarla yanaşı, bu gün emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyətinin mövcud vəziyyəti, müasir qloballaşan dünyada rəqabətədavamlı məhsullar istehsal etməyə bütövlükdə hazır deyil. Bu isə onu deməyə əsas verir ki, emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabət strategiyasının formalaşması mexanizmi yenidən

elə işlənilməlidir ki, bu halda ölkədə yeni rəqabət mühitinin yaradılması sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətliyinin azalması ilə nəticələnməsin. Bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığını əsaslandıran əsas amillərdir.

Müasir dünya iqtisadiyyatında rəqabət münasibətlərinin müxtəlif formalarının tətbiqinə baxmayaraq, bu cəhət həmişə iqtisadçı-alimlərin diqqət mərkəzində olmuş və hal-hazırda da bu problemin tədqiqinə aid çoxsaylı elmi-tədqiqat işləri həsr edilmişdir. Belə ki, bu problemin nəzəri-metodoloji aspektləri üzrə yerli alimlərdən Z.Ə.Səmədzadə, Q.Ə.Səfərov, T.N.Əliyev, M.C.Atakişiyev, T.Ə.Hüseynov, E.M.Hacızadə, İ.H.Alıyev, V.T.Novruzov, T.H.Hüseynov, Q.S.Süleymanov İ.A.Aslanzadə, A.İ.Orucov, X.M.Hüseynova, A.B.Abbasov, və s. xarici ölkə alimləri M.E.Porter, Y.Şumpeter, Z.Xunuta, F.A.Xayek, L.Kaçalin, A.Smit, D.Rikardo və başqaları dəyərli tədqiqat işləri aparmışdır. MDB məkanında isə Bakanov M.İ., Şeremet A.D., Batıçko V.T., Blinov A.O., Şapkin İ.N., Konina N.Y., Kraveç L.Q., Juçkeviç O.N. və s. kimi tanınmış iqtisadçı alimlərin tədqiqat işlərini göstərmək lazımdır. Bu sahədə aparılan tədqiqat işlərinin əhəmiyyətini azaltmadan, qeyd etmək lazımdır ki, qloballaşan müasir dünyada respublikamızın emal sənayesi müəssisələrinin rəqabət strategiyasının formalaşması mexanizmlərinin kompleks şəkildə tədqiqinə kifayət qədər yer verilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti Azərbaycanın emal sənayesi müəssisələri, o cümlədən qida və içki məhsulları istehsal edən sənaye müəssisələri və çörək və çörək məhsulları istehsal edən "Delta Qrup C.O." Məhdud Məsuliyyətli Cəmiyyəti təşkil edir. Predmeti isə müasir dövrdə Azərbaycanın emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin iqtisadi və təşkilati mexanizmlərin işlənməsi prosesləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi emal sənayesinin rəqabətqabiliyyətlilik səviyyəsini ölçməyə imkan verən innovativ meyarların müəyyənləşdirilməsi və bu meyarlar əsasında sahədə sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin iqtisadi inkişaf modellərinin yaradılmasıdır.

Tədqiqat içində qarşıya qoyulan məqsədə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişafının nəzəri və metodoloji aspektlərinin müəyyən edilməsi;

- Sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətli inkişafında rəqabət mühitinin rolunun əsaslandırılması;

- Emal sənayesində sahibkarlıq fəaliyyətinin mövcud vəziyyətinin qiymətləndirilməsi;

- Emal sənayesi müəssisələrinin istehsal-təsərrüfat fəaliyyətinin və rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi;

- Qida və içki məhsulları istehsal edən sənaye müəssisələrinin o cümlədən çörək və çörək məhsulları emal edən müəssisələrin istehsal-təsərrüfat fəaliyyətinin və rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi;

- Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişafına mane olan amillərin təsnifatı və onları doğuran səbəblərin elmi cəhətdən araşdırılması;

- Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişafını həyata keçirən innovativ meyarların müəyyənləşdirilməsi və buna əsaslanan iqtisadi-riyazi modellərin yaradılması;

- Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı inkişafında klasterlərləşmənin və dövlət tənzimlənməsinin rolunun müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Tədqiqat prosesində məntiqi ümumiləşdirmə, statistik təhlil, qruplaşdırma, müqayisə, iqtisadi-riyazi təhlil və reqressiya kimi metod və üsullardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:**

1. Sahibkarlıq fəaliyyətinin iqtisadi inkişafının nəzəri və metodoloji aspektləri tədqiq edilməklə, rəqabətədavamlı inkişafda rəqabət mühitinin rolunu vacibliyi əsaslandırılmışdır.

2. Emal sənayesində sahibkarlıq fəaliyyətinin təhlil edilməklə, mövcüd istehsal- təsərrüfat fəaliyyəti rəqabətqabiliyyətliq səviyyəsinin qiymətləndirilməsi üçün yeni iqtisadi mexanizmlərinin işlənməsinin vacibliyi əsaslandırılmışdır.

3. Emal sənayesində sahibkarlıq fəaliyyətinin inkişafında sənaye məhəllərinin və dövlət tənzimlənməsinin rolunun əsaslandırılması.

4. Qida və içki məshsulları istehsal edən emal sənayesi müəssilərinin rəqabətqabiliyyətlilik səviyyəsi təhlil olunmaqla, onun iqtisadi inkişafının vacibliyi əsaslandırılması

5. Çörək və çörək məhsulları istehsal edən sənaye müəssisələrinin rəqabətədavamlı iqtisadi inkişafına təsir edən amillərin təsnifatlaşdırılmasının vacibliyinin əsaslandırılması

6. Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişafının innovativ meyarlarının müəyyənləşdirilməsi əsaslandırılmışdır.

7. Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliliyini qiymətləndirən alqoritmin işlənməsinin vacibliyinin əsaslandırılması

8. Emal sənayesi müəssisələrinin rəqabətədavamlı inkişafına təsir edən amillər arasında ekonometrik modellərin və rəqabətqabiliyyətliliyin səviyyəsini ölçən meyarların, ekspert qiymətləndirməsi alqoritmin işlənməsinin vacibliyinin əsaslandırılması.

9. Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı inkişafında klasterlərin rolunun əsaslandırılması və qida sənayesinin klasterləşdirilmə-sinin funksional strukturunun yaradılması.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- Sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişafının nəzəri və metodoloji əsasları respublikanın emal sənayesinin iqtisadi inkişaf prioritetləri üzrə sistemləşdirilmişdir;
- Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətlik səviyyəsinin mövdud durumu qiymətləndirilərək, onun rəqabətədavaml inkişafına mane olan amillər və bunun əsasında sahədə həlli vacib olan strateji hədəflər elmi cəhətdən əsaslandırılmışdır;
- Emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişafını qiymətləndirən innovativ meyarlar və bunun əsasında alqoritm işlənilib hazırlanmışdır;
- Emal sənayesinin rəqabətədavamlı iqtisadi inkişafında sahələrarası əlaqələndirmə proseslərinin yaradılması mexanizmləri və onun iqtisadi səmərəlilik aspektləri elmi cəhətdən əsaslandırılmışdır;
- Ekspert qiymətləndirmə metodundan istifadə etməklə, emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətlilik səviyyəsini ölçən alqoritm təklif edilmişdir;

- Emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyətinin yüksəldilməsinin ekonometrik və klaster modelləri təklif edilmişdir;

- Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişafında dövlətin strateji fəaliyyət istiqamətləri elmi cəhətdən əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı inkişaf strategiyasının əsas müddəalarından, elmi cəhətdən əsaslandırılmış əməli xarakterli təklif və tövsiyələrdən istifadə edilməsi ölkəmizdə emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə gətirib çıxaracaq. Tədqiqat işinin əsas müddəaları, alınmış nəticələr və irəli sürülən təkliflər Azərbaycan Respublikasının emal sənayesi müəssisələrinin baza sahələrinin rəqabət qabiliyyətliyinin yüksəldilməsi ilə əlaqədar müxtəlif iqtisadi inkişaf strategiyasının və yeni innovativ meyarlar əsasında "Rəqabət Məcəlləsi" layihəsinin hazırlanmasında və regionlarda sənaye məhəllələrinin yaradılması prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları, irəli sürülən nəzəri və təcrübi təkliflər respublika və beynəlxalq elmi-praktiki konfranslarda məruzə edilmiş, yerli və xarici ölkə nəşrlərində 22 məqalə və 4 tezis dərc olunmuşdur. Eyni zamanda, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "İqtisadiyyat və Menecment" fakültəsində tədris prosesində və elmi tədqiqat işlərinin yerinə yetirilməsində istifadə edilir. Dissertasiya işinin nəzəri və praktik nəticələrindən irəli gələn təkliflərin və tövsiyyələrin tətbiqi ilə bağlı "RR İnvestment" MMC-nin (Arayış №045, 15.05.2018) tərəfindən tədqiqatçıya müvafiq tətbiq arayış təqdim olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Neft və Sənaye Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işində 5 şəkil, 25 cədvəl əks olunmuşdur. Dissertasiyanın strukturunda giriş 5 səhifə (283,919 işarə), birinci fəsil 50 səhifə (88,839 işarə), ikinci fəsil 47 səhifə (82,986 işarə), üçüncü fəsil

46 səhifə (75,002 işarə), nəticələr 6 səhifə (11, 221 işarə) və istifadə edilmiş 104 sayda ədəbiyyat siyahısından 9 səhifə ( 2,015 işarə) ibarətdir. Dissertasiyanın ümumi həcmi 165 səhifə kompyuter yazısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində işin mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya isinin yerinə yetirildiyi təşkilat və işin həcmi barədə məlumat təqdim edilir.

Dissertasiyanın işinin birinci fəsli **«Sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişafının nəzəri və metodoloji aspektləri»** adlanır. Burada rəqabətin formalaşması üzrə dünya təcrübəsi tədqiq edilir. Bu fəsildə "rəqabət" anlayışının bünövrəsini qoymuş xarici ölkə alimlərindən olan A.Smit, D.Rikardo, C.St.Millin, J.B.Seyin, İ.X.Fon Tünenin, Q.Şmollerin, K.Marks və C.Keynsin əsərləri tədqiq edilir. Bununla yanaşı, burada rəqabətin öyrənilməsində müasir instrumental yanaşmaların əsasını qoyan A.Marşall, A.Kurno, V.Cevsons, F.İ.Ecuort, K.Viksel və digər iqtisadçıların əsərləri də təhlil edilir.

Bu fəsildə göstərilir ki, son zamanlar elmi istiqamətlər arasında rəqabətin əsas mərhələsini (qiymət və qeyri-qiymət) əks etdirən M.Porterin rəqabət nəzəriyyəsi və J.Tirolun sənayenin təşkili nəzəriyyəsi aktuallaşmışdır. M. Porter tərəfindən irəli sürülmüş geniş rəqabət konsepsiyasının çıxış nöqtəsi ondan ibarətdir ki, bazarda firmanın öz rəqabət üstünlüyünü reallaşdırmaq imkanı təkcə onun qarşılaşdığı birbaşa rəqabətdən deyil, həm də bu bazarda potensial rəqiblər kimi çıxış edən əvəzləyici əmtəələr, müştərilər və təchizatçılar kimi rəqabət qüvvələrinin rolundan asılıdır.

Eyni zamanda bu fəsildə qeyd olunur ki, Azərbaycanda iqtisadi fikrinin müasir inkişaf mərhələsində də rəqabət mövzusuna marağın artması müşahidə olunur. Bir çox elmi əsərlərdə rəqabət anlayışı dolayısı ilə öyrənilir, yəni rəqabət təbii olaraq dünya ölkələrinə

inteqrasiyadan irəli gələn və öz-özlüyündə baş verən hadisə kimi qiymətləndirilir.

Bu fəsildə ümumiləşmiş şəkildə rəaqbətqabiliyyətliliyin (R) əsas kriteriyaları müəyyənləşdirilmişdir ki, buna isə qiymət (Q), keyfiyyət (K), xidmətin yüksək səmərəliliyi və cəlbediciliyi (X), zaman (T), o cümlədən nəzərə alınmayan diğər amillər (D) daxildir :

$$R=F(Q, K, X, T,D)$$

Yəni, emal sənayesi müəssisələrində innovasiyaların tətbiqi onların rəqabət üstünlüyünə nail olmasını, müəssisədə istehsal olunan məhsulun səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsini stimullaşdırır.

Bütün bunlara əsaslanaraq belə nəticəyə gəlmək olar ki, iqtisadi inkişafın metodoloji əsası rəqabətə təsir edən əsas amillərin qiymətləndirilməsidir. Bunlar isə sahə üzrə iqtisadi inkişaf strategiyasının qurulmasına kömək edər. Bu amillərə aşağıdakılar daxildir:

1. Texnoloji amillər. Bu amillərə elmi bilik, istehsal fəaliyyətinə və məhsula yeniliklərin daxil edilməsi və s. daxildir.

2. İstehsal amilləri. Bu amillərə minimum xərclərlə səmərəli fəaliyyət, yüksək keyfiyyətli istehsal, ixtisaslaşdırılmış kadrların cəlb edilməsi və s. daxildir.

3. Müəyyənləşdirici amillər. Bu amillərə çoxlu sayda distributorlar, pərakəndə satışdan gəlir əldə edilməsi, təchizat və təminatın vaxtında aparılması və s. daxildir.

4. Marketinq amilləri. Bu amillərə keyfiyyətli xidmət, alıcının tələbatının tam ödənilməsi, böyük çeşiddə məhsul, zəmanətin verilməsi və s. daxildir.

5. İxtisaslaşdırıcı amillər. Bu amillərə konkret və aydın reklamın yaradılması, texnoloji və layihələndirmə sahəsində ixtisaslı işçilərin çoxluğu və s. daxildir.

Lakin, qeyd etmək lazımdır ki, emal sənayesi müəssisələrinin müxtəlifliyinə görə bu amillər bir-birindən fərqlənirlər.

Bütün bu amillər sayəsində müəssisə öz rəqabətqabiliyyətliliyini yüksəldən, yəni müəssisənin səmərəli fəaliyyətinə müsbət təsir edən amilləri artırmağa, mənfi təsir edən amilləri isə azaltmağa imkan verən strategiyanı hazırlayır. Müəssisə öz bazardakı səviyyəsinə və həmçinin də öz məhsulunun inkişaf səviyyəsinə

əsaslanaraq rəqabətqabiliyyətliliyini artıran strategiya seçir. Bu halda müəssisələr göstərilən amillərdən istifadə etməklə, özünün rəqabətqabiliyyətliliyini artıran aşağıdakı strategiyaları yarada bilirlər:

1. Bazarın ələ alınması strategiyası. Əgər müəssisə öz məhsulu ilə bazarın tələbini tam ödəyə bilirsə və öz satış fəaliyyətinin həcmini bazarda artıra bilmək qabiliyyətindədirsə o, "bazarın ələ alınması strategiyasını" seçə bilər, eyni zamanda o bununla bazarda olan rəqiblərini çıxarda bilər.

2. Bazarın inkişaf strategiyası. Emal sənayesi müəssisələrinin yüksək inkişaf tempi, yeni ucuz və sərfəli satış kanallarına malik bazarların yaradılması, böyük resurs ehtiyatına malik olan və həmçinin də öz fəaliyyət sferasını inkişaf etdirmək qabiliyyətində olan müəssisələr "bazarın inkişaf strategiyası"nı seçirlər.

3. Məhsulun inkişaf strategiyası. Rəqib müəssisələrdə yüksək keyfiyyətdə məhsulun olması "məhsulun inkişaf strategiyası"ndan istifadə etməsinə səbəb ola bilər. Bu halda müəssisələr öz məhsulunu yaxşılaşdırmaqla satış həcmini artıra bilər.

4. Diversifiksiya olunmuş inkişaf strategiyası. Bu strategiya müəssisələrin eyni zamanda yeni məhsul istehsal etməsi və yeni bazarların əldə edilməsi ilə xarakterizə olunur.

Bundan başqa ləğvetmə, müsbət artım, azalma və s. strategiyalarda vardır.

Bütün bunlarla yanaşı, qoyulmuş məqsəd və vəzifədən asılı olaraq, müəssisənin rəqabətqabiliyyətli inkişaf strategiyasını artıran və qiymətləndirən digər innovativ tədbirlər də (üsullar) vardır. Bunlar aşağıdakılardır:

1. İnnovasiyadan daimi olaraq istifadə.

2. Yeni, mükəmməlləşdirilmiş məhsul növlərinin daxil edilməsi.

3. Yerli və beynəlxalq standartlara cavab verən məhsul istehsalı.

4. Məhsulun satışını bazarın elə hissəsində aparmalı ki, orada bu məhsula olan tələb yüksək olsun

5. Yalnız yüksək keyfiyyətli materialdan istifadə olunması.

6. Mənfi və müsbət cəhətlərinin öyrənilməsi məqsədilə rəqib müəssisələrin öyrənilməsi.

7. Elmi-tədqiqat müəssisələri ilə əlaqənin qurulması, həmçinin də məhsulun keyfiyyətini artırmaq məqsədilə elmi işlərə investisiya qoyulması.

Müəssisənin rəqabətqabiliyyətliliyini artıran iqtisadi inkişaf strategiyaları sahə üzrə innovativ metodların identifikasiya olunmasına və qarşıya qoyulmuş məqsədlərə nail olmağa imkan yaradır. Bu halda, emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliliyin artırılmasının idarə olunması dedikdə işçilərin stimullaşdırılmasına əsaslanan müəssisələrin idarə edilməsi nəzərdə tutulur. Bu halda menecerlər keyfiyyətli məhsul istehsal etməyi təmin etməklə yanaşı, yüksək xidmət göstərir, həmçinin də istehlakçılarla elə əlaqə qururlar ki, onların tələblərini tam ödəyə bilsinlər. Bütün bunların sayəsində müəssisə qoyulmuş məqsədlərə çatar və uzunmüddətli fəaliyyət göstərə bilərlər. Qeyd etmək lazımdır ki, ölkəmizdə fəaliyyət göstərən emal sənayesi müəssisələrinin istehsal etdiyi məsulların rəqabətqabiliyyətini artırmaq hal-hazırda ən mürəkkəb və aktual problemlərdən biridir. Bu problem dövlət səviyyəsində həll olunmalıdır. Çünki, burda dövlətin planlaşdırılmış innovasiya-investisiya layihələri və onun strateji istiqamətləri həyata keçirilməlidir. Yəni, emal sənayesi üzrə qısa müddət ərzində innovativ tədbirlərin həyata keçirilməsi və elmin son nailiyyətlərindən istifadə olunması vacibdir. Emal sənayesi müəssisələrinin yerli istehsalını həyata keçirməklə yanaşı, həmçinin bazar infrastrukturu və istehlakçı bazarının yaxşılaşdırılması, inhisarçılığın və rəqabətdə vasitəçilərin mənfi təsirinin qarşısının alınması da aktual məsələlərdən biridir. Yəni, emal sənayesi müəssisələrinin istehsal etdiyi məhsulların bazara daxil olması üçün əlverişli şərait yaradılması mütləqdir. Emal sənayesində sahibkarlıq fəaliyyətinin yüksəldilməsi üçün təklif edilmiş innovativ iqtisadi inkişaf strategiyalarından istifadə etməklə, müəssisə öz rəqabətqabiliyyətliliyini artırar və maliyyə stabilliyini qoruyub saxlamağa nail olar.

Bu fəsildən belə nəticəyə gəlinir ki, ölkəmizdə fəaliyyət göstərən emal sənayesi müəssisələrinin istehsal etdiyi məsulların

rəqabətqabiliyyətini artırmaq hal-hazırda ən mürəkkəb və aktual problemlərdən biridir. Bu problem dövlət səviyyəsində həll olunmalıdır. Çünki, burda dövlətin planlaşdırılmış innovasiya-investisiya layihələri və onun strateji istiqamətləri həyata keçirilməlidir. Yəni, emal sənayesi üzrə qısa müddət ərzində innovativ tədbirlərin həyata keçirilməsi və elmin son nailiyyətlərindən istifadə olunması vacibdir. Emal sənayesi müəssisələrinin yerli istehsalını həyata keçirməklə yanaşı, həmçinin bazar infrastrukturu və istehlakçı bazarının yaxşılaşdırılması, inhisarçılığın və rəqabətdə vasitəçilərin mənfi təsirinin qarşısının alınması da aktual məsələlərdən biridir. Yəni, emal sənayesi müəssisələrinin istehsal etdiyi məhsulların bazara daxil olması üçün ölkədə sağlam rəqabət mühitinin olması mütləqdir. Emal sənayesində sahibkarlıq fəaliyyətinin yüksəldilməsi üçün sağlam rəqabət mühiti ilə yanaşı innovativ iqtisadi inkişaf strategiyalarından istifadə etməklə, müəssisə öz rəqabətqabiliyyətliliyini artırar və maliyyə stabilliyini qoruyub saxlamağa nail olar.

Dissertasiya işini ikinci fəsli **«Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliliyinin mövcud vəziyyətinin qiymətləndirilməsi»** adlanır. Burada emal sənayesində, o cümlədən qida və içki məhsulları istehsal edən müəssisələrin rəqabətədavamlılıq göstəriciləri təhlil edilir. Bu fəsildə sahibkarlıq fəaliyyətinin əsas göstəricilərinin təhlili göstərir ki, ölkədə 2015-ci ildə kiçik müəssisələrin sayı 2014-cü illə müqayisədə 19.1 % artaraq 17847 vahid olmuş və bu da onu göstərir ki, son illərdə kiçik müəssisələrin sayında artım müşahidə olunur. Həmçinin, kiçik müəssisələrdə orta aylıq əmək haqqı 2015-ci ildə 302.1 manat olmuşdur, 2019-cu ildə 6.2 % artım müşahidə olunaraq 322.2 manat təşkil etmişdir.

Bu fəsildə aparılmış təhlillər onu deməyə əsas verir ki, ölkəmiz aqrar sənayesi məhsulları həcminə və rəqabətlilik səviyyəsinə görə emal sənayesi sahələri arasında 1-ci yeri tutur. Belə ki, son illərdə qida istehsalının həcmi 2,7 milyard manata çatmışdır. Onu da qeyd etmək olar ki, qida sənayesinin məhsullarının həcmi son 10 ildə orta hesabla 2,7 dəfə artmışdır. Deməli, qida sənayesi emal sənayesi sahələri arasında ən dinamik inkişaf edən sahələrdən biridir. 2016-cı ilin statistik məlumatlarına əsaslanaraq demək olar ki, ölkəmizdə qida sənayesində ümumi olaraq 22,8 min nəfər və 631 müəssisə fəaliyyət göstərir. 2008-

ci ildəki dünya böhranı zamanı müəssisələrin sayı və çalışanların sayı azalsa belə, 2012-ci ildə əks tendensiya başlamışdır və ölkəmizdə tək 2012-ci ildə 31 yeni müəssisə və 2,5 min yeni iş yeri yaranmışdır. Bundan əlavə, 2003-2019-cu illərdə qida sənayesində adambaşına məhsuldarlıq 1,7 dəfə artmışdır (74 min manatdan 121,5 manata kimi).

Bu fəsildə göstərilir ki, qida sənayesi ilə yanaşı içki məhsulları ölkənin yeyinti sənayesində, o cümlədən də ərzaq təhlükəsizliyində xüsusi əhəmiyyət daşıyır. Belə ki, 2010 – 2016-cı illərin statistikasına baxsaq, içki sənayesinin göstəriciləri aqrar sənayesi məhsulları içərisində xüsusi əhəmiyyət daşıyır. Belə ki, son illərdə ölkədə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə yönəldilmiş tədbirlər nəticəsində kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artması təmin edilib. Buna paralel olaraq yeyinti sənayesi məhsulları üzrə özünü təminetmə səviyyəsi ciddi şəkildə yüksəlib və bu içki sənayesinə təsirsiz ötüşməyib.

Belə ki, içki istehsalı ilə məşğul olan müəssisələrin sayında ən çox azalma dövrü 2013-cü ilə təsadüf edir. 2013-cü ildə dövlət içki müəssisəsinin sayı 3, qeyri-dövlət içki istehsalı müəssisəsinin sayı isə 107 olmuşdur. Bu sahədə dövlətə aid müəssisələrin sayı demək olar dəyişməmiş və 2010-cu ili çıxmaq şərti ilə 3 olaraq davam etmişdir. Qeyri-dövlət müəssisələrində isə oynamalar olmuşdur. Müəssisə sayı 2014-cü ilə qədər 23 ədəd azalmış və 2019-cu ilə qədər artaraq 117 olmuşdur.

Bu fəsildə aparılmış təhlillər respublikamızda qida və içki istehsalı ilə məşğul olan sənaye müəssisələrinin inkişaf etdirilməsinin vacibliyini və səmərəli olduğunu söyləməyə əsas verir. Bununla yanaşı bu fəsildə göstərilir ki, ölkəmizdə qida və içki istehsalı ilə məşğul olan sənaye müəssisələrinin inkişaf etdirilməsinin özəl üstünlükləri də vardır ki, bu da ölkəmizin digər ölkələrdən fərqli tərəflərini göstərir:

- Qida və içki istehsal edən sənaye müəssisələrinin inkişaf etdirilməsi üzrə tarixi ənənələrin olması.
- Qida və içki istehsal edən sənaye müəssisələrinin inkişafı üçün zəngin xammal bazası və mineral ehtiyatların olması .
- Ölkəmizdə yetişdirilən meyvə-tərəvəz məhsullarının və mineral su ehtiyatlarının bir çoxunun dünyada analoqunun olmaması.

- Respublikanın kiçik və orta şəhərlərində qida və içki məhsulları istehsal edən sənaye məhsullarının inkişaf etdirilməsi üzrə imkanların və ərazi ehtiyatların olması .

- Nəqliyyat daşımaları baxımından əlverişli iqtisadi-coğrafi mövqe və potensial ixrac bazarlarına yaxınlıq və s.

Bu fəsildə göstərilir ki, qida sənayesinin inkişaf etdirilməsi üzrə ölkədə bir sıra böyük istehsal həcminə malik, müəssisələr fəaliyyət göstərir. Bu müəssisələrdən biridə "Delta Qrup C.O." MMC-dir. "Delta Qrup C.O." Məhdud Məsuliyyətli Cəmiyyət 1999-cu ildə təsis edilmişdir. Müəssisə hazırda öz fəaliyyət sahələri istiqamətində Azərbaycan bazarında əhəmiyyətli yer tutmaqdadır.

"Delta Qrup C.O." Məhdud Məsuliyyətli Cəmiyyət "Anchor", "Doyaruşka", "Ammerlander", "Gut von Holstein", "Tibet" kimi brendlərin Azərbaycanda rəsmi distributorudur. Bugünkü gündə "Delta Qrup C.O." MMC ticarət markalarının kompleks şəkildə idarə edilməsi (distributorluq, marketinq) üzrə ixtisaslaşıb. Yerli istehsalda isə müəssisənin iki yerli zavodu fəaliyyət göstərir. Bunlar "Bismak" və "Çörəkçi" zavodlarıdır. "Çörəkçi" zavodu Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun güzəştli krediti və "Delta Qrup C.O." MMC-nin vəsaiti hesabına 14.01.2013-cü il ildə təsis edilmişdir.

Müəssisənin rəqabətədavamlılığını SWOT analizi vasitəsilə həyata keçirək: Məlumdur ki, SWOT analizi dörd hissədən ibarət olur. Seçilən müəssisənin güclü tərəfləri, zəiflikləri, imkanları və təhlükələri qeyd olunur. Bu analizdən sonra bütün maddələr ilə yaxından tanış olub, şirkətin güclü və zəif tərəfləri, imkanları və fəaliyyətində mövcud olan təhlükələri haqqında məlumata sahib olacağıq. Şəkil 1-də "Çörəkçi" zavodunun SWOT analizi verilmişdir.

Bu fəslin sonunda belə nəticəyə gəlmək olar ki, qloballaşan müasir dünyada respublikanızın emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlə iqtisadi inkişafının innovativ meyarlarının, onun yüksəldilməsinin iqtisadi-riyazi və klaster modellərinin, eyni zamanda bu istiqamətdə dövlət tənzimlənməsinin strateji istiqamətlərinin bazarın tələblərinə uyğun yenidən işlənməsi vacibdir.




**Şəkil 2.3.2 "Çörəkçi" zavodunun SWOT analizi**

Dissertasiya işinin üçüncü fəsli **«Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliyinin yüksəldilməsinin iqtisadi inkişaf modelləri»** adlanır. Burada emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı iqtisadi inkişafının innovativ meyarları, dövlət tənzimlənməsinin strateji istiqamətləri və onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin iqtisadi-riyazi və klaster modelləri təklif edilir.

Bu fəsildə emal sənaye müəssisələrinin rəqabətədavavamlı inkişafını qiymətləndirməyə imkan verən bütün innovativ göstərici və kriteriyaları birləşdirən alqoritm təklif edilmişdir (sxem 1).




**Sxem 1. Emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətliliyini qiymətləndirən alqoritmin blok-sxemi**

Burada 1. Müəssisənin istehsal səmərəliliyi; 1.1. Məhsul vahidinə düşən xərclər (man); 1.2. Fondverimi (min man.); 1.3.Məhsulun rentabelliyi (%); 1.4. Əmək məhsuldarlığı (min man./adam); 2. Müəssisənin maliyyə təminatı; 2.1. Sərbəstlik əmsalı; 2.2. Ödəməqabiliyyəti əmsalı; 2.3. Mütləq likvidlik əmsalı; 2.4. Dövriyyə vəsaitlərinin dövretmə əmsalı; 3. Satışın səmərəliliyi və istehsalın inkişafı; 3.1. Satışın rentabelliyi (%); 3.2. Məhsulun aşılanması əmsalı; 3.3. İstehsalın yüklənmə əmsalı; 3.4. Satışın stimullaşdırıcısı

əmsalı; 4. Məhsulun rəqabətqabiliyyətliliyi; 4.1. Məhsulun qiyməti; 4.2. Məhsulun keyfiyyəti.

Bu fəsildə emal sənayesində istehsal edilmiş rəqabəqabiliyyətli məhsulun həcmi ilə tədqiqat obyektinə uyğun onun alt sahələri arasında korrelyasiya əlaqəsini müəyyənləşdirilmişdir:

$$Y= a_0 * X_1^{a1} * X_2^{a2} * X_3^{a3} * X_4^{a4} \qquad (1)$$

Burada, Y-emal sənayesi üzrə istehsal olunmuş innovasiyalı məhsulun həcmi; $X_i$ (i=1,4)-onun alt sahələrinin istehsal etdiyi məhsulların həcmi; $a_i$ (i=0,4)-reqresiya əmsallarıdır.

Reqressiya modelinin alqoritmindən istifadə etməklə reqressiya əmsalları hesablanır:

$$a_0 =1,7;\ a_1 =0,01\ ;\ a_2 =0,05\ ;\ a_3 =0,8\ ;\ a_4 =0,08\ ;$$

Bu əmsalları (1)-də yerinə yazsaq, aşağıdakı reqressiya modelini alarıq.

$$Y= 1,7 * X_1^{0,01} * X_2^{0,09} * X_3^{0,8} * X_4^{0,08} \qquad (2)$$

Bu (2) modeli aşağıdakı mülahizələri söyləməyə əsas verir:

1. Qida məhsullarının istehsalının 1 % artması emal sənayesi müəssisələrində istehsal olunmuş rəqabətqabiliyyətli məhsulun həcminin 0,01 % artmasına gətirib çıxarar.

2. İçki məhsullarının istehsalının 1% artması emal sənayesi müəssisələrində istehsal olunmuş rəqabətqabiliyyətli məhsulun həcminin 0,09% artmasına səbəb olar.

3. Kimya sənayesi məhsullarının istehsalının 1% artması emal sənayesi müəssisələrində istehsal olunmuş rəqabətqabiliyyətli məhsulun həcminin 0,8% artmasına səbəb olar.

4. Maşın və avadanlıqlarının istehsalını 1% artması emal sənayesi müəssisələrində istehsal olunmuş rəqabətqabiliyyətli məhsulun həcminin 0,08% artmasına səbəb olar.

(2) modelinin adekvatlığının yoxlanılmasında cəm korrelyasiya əmsalı (R), determinasiya əmsalı ($R^2$ ), Fişer əmsalı (F), Styudent əmsalı ($S_t$), səhvin orta aproksimasiya əmsalından(E) istifadə edilmişdir. Hesablama nəticəsində R =0,953( bunun qiyməti=0,7 olanda korrelyasiya asılılığı yüksəkdir); F=7,43 (bunun kritik qiyməti=2,22); $S_{t1}$ =1, 76; $S_{t2}$ =1,85 (kritik qiyməti =2,08); E=5,7 (bu iqtisadi məsələlər üçün qəbul edilir) olmuşdur.

Bu fəsildə eyni zamanda aşağıdakı proqnoz modelləri də təklif edilmişdir:

- emal sənayesi üzrə texnoloji innovasiyalara yönəldilən maliyyə vəsaitlərinin artırılması;
- emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı inkişafına mane olan amillərin aradan qaldırılması;
- emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyətinin maliyyə təminatının yüksəldilməsi mənbələri;
- emal sənayesi müəssisələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrin və işçilərin sayının artırılması;
- emal sənayesi məhsulunun həcminin artırılması.

Bu fəsildə müəssisənin rəqabətlilik səviyyəsinin ölçülməsində (“xarici mühitlə əlaqə” və “transmilli xərclər” meyarları üzrə) praktikada ən çox istifadə edilən ekspert qiymətləndirmə metodundan istifadə edilir. Bu metod sahə üzrə mütəxəssislərin (ekspertlərin) öz bilik və təcrübələri əsasında tədqiqat-axtarış işlərinin aparılmasını nəzərdə tutur. Bu metodun əsasını ciddi elmi baza və baxılan müəssisənin rəqabətqabiliyyətliyi və fəaliyyət göstəriciləri arasında asılılığı müəyyən edən statistik və riyazi xarakterli müşahidələr təşkil edir. Bu zaman ekspertlər xarici mühitlə əlaqələndirici prosesləri və transmilli xərcləri qiymətləndirirlər. Yəni, müəssisələrin bazardakı payı, gəlirliyi və fəaliyyətinin nəticələri üzrə qiymətləndirmələr həyata keçirilir. Bu halda texniki, texnoloji, keyfiyyət və digər dəyişikliklər müəssisənin təşkilatı fəaliyyətinin nəticələrində öz əksini tapır. Bu zəruriyyətdən irəli gələrək, mövcud elmi-tədqiqat araşdırmaları ümumiləşdirərək, emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsini ölçməyə (beş ballıq qiymətləndirmə göstəriciləri üzrə) imkan verən ekspert qiymətləndirmə cədvəlini (cədvəldə yeddi ekspertlərin sahə üzrə qiymətləndirilmə göstəricilərindən istifadə edilir və hər bir ekspert uyğun olaraq-1, 2,…..,7-nömrələnir) təklif etmək olar (cədvəl 1).

Respublikamızda fəaliyyət göstərən emal sənayesi müəssisələrinin xarici mühitlə əlaqələndirici və transmilli xərclərini cədvəldə verilmiş meyarlar və göstəricilər üzrə qiymətləndirməklə onun rəqabətədavamlı iqtisadi inkişafını proqnozlaşdırmaq olar. Yəni, müəssisənin rəqabətqabiliyyətlilik səviyyəsi göstərilən meyarlar üzrə, orta

bal göstəricilərindən aşağı və ya ona bərabər olarsa, onda müəssisə müqayisə olunan baza müəssisəsindən daha aşağı rəqabətqabiliyyətlidir və ya baza müəssisəsinin rəqabətqabiliyyətlilik səviyyəsinə bərabərdir. Əgər, müəssisənin rəqabətqabiliyyətlilik səviyyəsi göstərilən meyarlar üzrə, orta bal göstəricilərindən böyük olarsa, onda müəssisənin rəqabətqabiliy-yətlilik səviyyəsi müqayisə olunan baza müəssisənin rəqabətqabiliyyətliyindən yüksəkdir. Yəni, müəssisə rəqabətədavamlıdır.

**Cədvəl 1. Emal sənayesi müəssisələrinin rəqabətlilik səviyyəsini ölçən meyarlar və onların orta bal göstəriciləri**

| Meyarlar | Ekspertlər və onların qiymətləndirmə göstəriciləri | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1. Sahibkarlıq subyektlərinin (müəssisələrin) xarici mühitlə əlaqəsi | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | Orta bal |
| Kommunikasiya səviyyəsi | 4 | 3 | 5 | 4 | 3 | 3 | 5 | 3,9 |
| İnnovasiya fəaliyyəti | 3 | 4 | 3 | 5 | 4 | 3 | 3 | 3,5 |
| Texnologiya səviyyəsi | 4 | 3 | 5 | 5 | 3 | 3 | 3 | 3.7 |
| Cəmi | 11 | 10 | 13 | 14 | 10 | 9 | 11 | 11,1 |
| Sahibkarlıq subyektlərinin ümumi xərcləri (transmilli xərclər) | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | Orta bal |
| Müəssisənin təsərrüfat fəaliyyəti ilə əlaqəli xərclər | 4 | 3 | 4 | 3 | 3 | 5 | 5 | 3,9 |
| Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi və müdafiəsi xərcləri | 5 | 4 | 5 | 3 | 5 | 5 | 5 | 4,5 |
| Cəmi | 9 | 7 | 9 | 6 | 8 | 10 | 10 | 8,4 |

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

Bu fəsildə göstərilir ki, Azərbaycanda isə sənaye potensialının yüksəldilməsi, milli iqtisadiyyatın diversifikasiyası və innovasiyalaşdırılması, sənaye və o cümlədən də emal sənayesi sahələrinin inkişafının sürətləndirilməsi məqsədi ilə dayanıqlılıq və davamlılıq prinsipləri əsasında dünya təcrübəsinə və milli iqtisadi inkişaf ənənəsinə söykənən düşünülmüş dövlət iqtisadi siyasəti həyata keçirilir. Məhz, bunun nəticəsi olaraq, 2014-cü il ölkə Prezidenti İlham Əliyev tərəfindən "Sənaye ili" kimi elan edilmiş və ölkədə müasir sənaye müəssisəsinin - sənaye parkları və yüksək texnologiyalar əsaslı texnoparklar şəbəkəsi formalaşdırılmış, aqroparkların və sənaye məhəllələrinin yaradılmasına başlanılmışdır. Bu məqsədlə, emal

sənaye klasterlərinin ümumiləşmiş strukturu təklif edilir. Bu struktur özündə sahənin istehsal, xidmət təminat, istehlak, tədqiqat, ixrac və təhsil elementlərini birləşdirməlidir.

**Cədvəl 2. Qida sənayesi müəssisələrinin klasterli idarə edilməsinin ümumiləşmiş strukturu**

| Strukturun əsas elementləri | Sahəyə daxil olan ayrı-ayrı istehsal müəssisələri, təşkilatlar, firmalar, şirkətlər və s. |
|---|---|
| 1. İstehsal | - Ət məhsulları (ət, kolbasa, yeməli balıq məhsulları (balıq konservləri daxil olmaqla) istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri<br>- Un məhsulları (makaron məmulatları, un, çörək və çörək-bulku) istehsal edən sahibkarlıq subyektləri<br>- Süd və yağ məhsulları ( pendir və kəsmik, süd, kərə yağı, bitki yağları) istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri<br>- Konservləşdirilmiş tərəvəz və meyvələrin istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri<br>- Qənnadı məmulatları istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri<br>- Təbii çay məhsulları istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri<br>- Yodlaşdırılmış duz istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri və s. |
| 2. Təchizat | - Aqrosənaye təşkilatları |
| 3.Xidmət | - Taxıl emalı<br>- Qida sənayesi üçün xammal<br>- Heyvandarlıq üçün yem<br>- Kənd təsərrüfatı texnikası istehsalı<br>- Kənd təsərrüfatının texnika ilə təchizatı<br>- Müəssisələrin texnoloji proseslərinin ehtiyat hissələrlə təminatı<br>- Kənd təsərrüfatı texnikasının təmiri<br>- Qida avadanlıqları və s. |
| 4. İstehlak | - Əhali<br>- İaşə müəssisələri<br>- Sosial sfera müəssisələri və s. |
| 5. Tədqiqat | Elmi-tədqiqat institutları və təşkilatları və s. |
| 6. İxrac | - Qida məhsulları ixrac olan ölkələri |
| 7. Təhsil | - Qida sənayesi üzrə kadr hazırlayan təhsil müəssisələri |

Eyni zamanda bu fəsildə emal sənaye klasterlərinin təklif edilmiş ümumi strukturunun bazası əsasında qida sənayesi müəssisələrinin klasterli idarə edilməsinin strukturu təklif edilmişdir.

Dissertasiyanın **“Nəticə”** bölməsində əldə etdiyimiz nəticələr və irəli sürdüyümüz təklifləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Son illərdə Azərbaycan hökuməti sahibkarlığın inkişaf etdirilməsi məsələsinə ciddi önəm verməyə başlamış, bu sahədə mühüm qərarlar vermişdir. Problemlərin həlli baxımından yeni qəbul edilmiş “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci və 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı “, “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”, “Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” və “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi” və digər fərmanlar mühüm əhəmiyyət daşıyır. Bu proqramlar emal sənayesində sahibkarlıq fəaliyyətinin rəqabətədavamlı inkişafının və onun sosial-iqtisadi səmərəsinin yüksəldilməsi və regionlarda sənaye məhəllələrinin yaradılması baxımından əhəmiyyətli rol oynaya bilər.

2. Sahibkarlar keyfiyyətli məhsul bolluğunun yaradılmasında, rəqabətə davamlı sahələrin inkişafında və əhalinin məşğulluğunun təmin edilməsində həlledici amilə çevrilmişdir. Bu məqsədlə, sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi ilə qeydiyyatı sistemini tətbiq edilmişdir. Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı irimiqyaslı və strateji əhəmiyyətli tədbirlər həyata keçirilsə də etiraf olunmalıdır ki, sahibkarlığın inkişafının mövcud vəziyyəti qənaətbəxş deyildir. Respublikada keyfiyyətli məhsul bolluğunun yaradılmasında, rəqabətqabiliyyətli sahələrin inkişafında, əhalinin məşğulluğunun təmin edilməsində sahibkarların potensialı tam reallaşdırılmır.

3. Emal sənayesində sahibkarlıq subyektlərinin təşkilati fəaliyyət sistemi bir-biri ilə üzvi surətdə qarşılıqlı əlaqədə olan iki blokdan ibarətdir. Bunlardan biri bazar rəqabət sistemidir. Bu mikro, makro, mezo səviyyələrdə sahibkarlıq tipində təkrar istehsalın özünü təşkiletmə və özünü idarəetmə sistemidir. Digəri isə iqtisadi qanunlara, o cümlədən, sahibkarlıq və bazar qanunlarına adekvat olan

sahibkarlığın dövlət tənzimlənməsi sistemidir. Emal sənayesində sahibkarlıq subyektlərinin bütün fəaliyyət formaları, xüsusilə də, onun formalaşması prosesi təşkilati-təsərrüfat mexanizminin hər iki blokda səmərəli fəaliyyəti vacibdir.

4. Emal sənayesində sahibkarlıq subyektlərinin rəqabətədavamlı inkişafı üçün infrastruktur gücləndirilməli və müasirləşdirilməlidir. Bununla yanaşı, Sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafının, eləcə də fərdi əmək fəaliyyətilə məşğul olan insanların iqtisadi həvəsləndirilməsi həyata keçirilməli. Bu sahədə dünya ölkələrinin təcrübəsindən yaralanılması məqsədəuyğundur. Bu məqsədlə, Sahibkarlığa dövlət yardımı edilməsi, sahibkarlıq subyektlərinə dövlət tərəfində texniki maliyyə yardımları təkmilləşdirilməlidir. Dünya təcrübəsində dövlət müdafiəsinin birbaşa məqsədli subsidiyaların ayrılması, güzəştli vergiyə cəlbetmə, təminatçı rolunda çıxışetmə kimi variantları tətbiq edilir.

5. Emal sənayesində sahibkarlıq subyektlərinin rəqabətədavamlı inkişafı üçün onların maliyyə təminatı imkanlarının gücləndirilməsi, işgüzar fəaliyyətin maliyyə təminatı sahəsində dövlətin mövcud real imkanlarından istifadə səviyyəsi artırılmalıdır. Bununla yanaşı, yerli xammal əsasında istehsalla məşğul olan sahibkarlıq subyektlərinin dövriyyə və ilkin kapitalla təmin edilməsində bank vəsaitlərinin dəstəklənməsinə dövlət yardım etməlidir. İlkin kapitalın formalaşması, kapital qoyuluşlarının maliyyələşməsi üçün uzunmüddətli kreditərə çıxış imkanlarının genişləndirilməsi yolları işlənilməlidir. Kiçik və orta sahibkarlığın dinamik inkişafına şərait yaratmaq üçün uzunmüddətli kreditlərin verilməsi, məqsədli xüsusi sahibkarlıq kredit fondunun yaradılması. Prioritet sahələrdə sahibkarlığın inkişafına yönəldilmiş təşkilati tədbirlərin əhatə dairəsi genişləndirilməlidir.

6. Emal sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin rəqabətədavamlı fəaliyyəti üçün, xüsusilə, regional sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi üzrə mühitin yaradılması vacibdir. Bu məqsədlə dövlətin iqtisadi tənzimləmə üsullarının tətbiqi sahəsində emal sənayesində sahibkarlıq subyektlərinin maraqlarının cəmiyyətin

maraqları baxımından vahid müstəviyə gətirilməsini siyasəti həyata keçirməlidir.

7. Qida və içki məhsulları istehsal edən emal sənaye müəssisələrində qoyulmuş investisiyaların və texnoloji innovasiyalara çəkilən xərclərin həcmi sahənin beynəlxalq standartlara cavab verə bilən, rəqabətədavamlı çoxsaylı sənaye məhsullarının istehsalına və ixracına bütövlükdə tam cavab vermir.

8. Emal sənayesi müəssisələrində rəqabət mühitinin formalaşması zamanı bazarın inhisarlaşdırılmasının sahənin inkişafına neqativ təsiri haqqında aşağıdakıları söyləməyə əsas verir.

Son istehlakçıların əsas hüquqları pozulur, belə ki, onlar süni azaldılmış təkliflə artırılmış qiymətlər üzrə malları əldə etməyə məcbur edilmişlər;

İstehsalın həddən artıq konsentrasiyası sahibkarlığın inkişafını boğur, nəticədə düzgün rəqabət mexanizmi daha az səmərəliklə hərəkət edir;

İnhisarçılıq bazarın inkişafında struktur nisbətsizliklərə gətirir.

9. Rəqabətqabiliyyətliyinin qiymətləndirilməsində qoyulmuş məqsəddən asılı olaraq «ən yaxın rəqiblərin seçimi», «daha güclü rəqiblərin seçimi», «bazarda əhəmiyyətli ümumi paya malik olan müəssisələrin seçimi», «bazarın coğrafi sərhədləri çərçivəsində bütün fəaliyyətdə olan rəqiblərin seçimi» və «bütün mümkün rəqiblərin seçimi» meyarlarından istifadə olunması məqsədəuyğundur.

10. Emal sənayesi müəssisələrinin inkişaf etdirilməsində əsas məqsəd ölkədə elmtutumlu və yüksək texnologiyalı, rəqabətədavamlı və ixracyönümlü, dünya standartlarına cavab verən emal sənayesi məhsullarının istehsal edilməsinə nail olmaq və ölkənin "neft amili"ndən asılılığını aradan qaldırmaqdır. Bu isə emal sənayesi müəssisələrində dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, investisiya-innovasiya mənbələrinin və resurslarının müəyyənləşdirilməsi və artırılması, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi əsasında həyata keçirilə bilər.

11. Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətli məhsullar istehsalına mane olan iqtisadi, istehsal və digər amilləri üzrə təsnifatlaşdırılması belə nəticəyə söyləməyə əsas verir: Emal sənayesi

müəssisələrində rəqabətədavamlı istehsalın həcmində iqtisadi xarakterli amillər daha çox əhəmiyyətə malikdir.

12. Azərbaycanın emalı sənayesi müəssisələri rəqabətli bazar münasibətlərinin formalaşdığı qloballaşan dünyada fəaliyyət göstərməyə hələ də tam hazır deyil. Buna görə də dövlətin «sənaye siyasəti» qanununda emal sənayesi kompleksində struktur dəyişikliklərin aparılması, onun istehsal və elmi-texniki potensialının inkişafını təmin edən maksimal əlverişli şəraitin yaradılması məsələləri öz əksini tapmalıdır.

13. Emal sənayesi müəssisələrinin rəqabət qabiliyyətliyinin yüksəldilməsini stimullaşdırmaq üçün elmtutumlu məhsulların istehsalının genişlənməsini təmin etmək, elmi-tədqiqat institutlarının fəaliyyətini genişləndirmək, bütövlükdə isə onun innovasiya yönümlü inkişafına nail olmaq lazımdır.

14. Emal sənayesi sahələrində rəqabətədavamlı məhsullar istehsalını stimullaşdırmaq üçün istehsala yönəldilən investisiyaların həcmini artırmaq, gömrük siyasəti vasitəsilə optimal rəqabət rejimini yaratmaq, ixrac yönümlü istehsalı genişləndirmək (bunun üçün xüsusi iqtisadi zonalar yaratmaq), güzəştli kreditlərin verilməsinin ixrac-idxal əməliyyatları üçün inzibati qaydaların asanlaşdırılmasını həyata keçirmək lazımdır.

15. Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliyini artırmaq üçün sahənin ixrac siyasətini iqtisadiyyatın struktur islahatları ilə əlaqələndirilməsi, onun ixrac aktivliyinin stimullaşdırılması və s. məsələlər həyata keçirilməlidir.

16. Emal sənayesi sahələrində diversifikasiya prosesi həyata keçirilməlidir. Bu isə ölkə iqtisadiyyatının xarici-iqtisadi inkişaf strategiyasına uyğun aparılmalı, yüksək texnoloji emal sənayesinin daha yüksək sürətli inkişafı hesabına ölkənin neft sektorundan asılılığını aradan qaldırmalı, innovasiya sisteminin yaradılması yolu ilə emal sənayesi sahələrini rəqabətədavamlı, dayanıqlı iqtisadi artımın əsas resursuna çevirmək lazımdır.

17. Emal sənayesi sahələrinin rəqabətqabiliyyətliyini yüksəltmək, dövlətin sənaye siyasətini aparmaq üçün bu sahədə pozitiv struktur dəyişikliklər, mülkiyyət hüququnun qorunması, informasiya aşkarlığı və təbii inhisar məhsullarının qiymətlərinin tənzimlənmə

metod və sistemlərinin yaxşılaşdırılması üçün təşkilati və hüquqi bazanın yaradılması, vergi sistemində islahatların aparılması, xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən himayə edilməsi, mükəmməl və səmərəli fəaliyyət göstərən inkişaf institutlarının yaradılması, daxili bazarda yerli emal sənaye məhsuluna tələbin gücləndirilməsi və idarəetmə sisteminin təkmilləşdirilməsi həyata keçirilməlidir.

18. Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliliyini yüksəltmək və milli iqtisadiyyatın sosial-iqtisadi inkişaf strategiyasının reallaşdırılması üçün iqtisadiyyatın innovasiya tipli inkişaf yoluna keçmək, texnologiyaların kommersiyalaşması hesabına elmi-texniki nailiyyətlərin nəticələrinin əmtəəyə çevrilməsi və sənaye miqyasında onlardan səmərəli realizasiyasına nail olmaq lazımdır. Eyni zamanda kimya, neft-kimya, maşınqayırma, metallurgiya, və digər emal sənaye komplekslərin mövcud potensialından istifadənin yaxşılaşdırılması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması, innovasiyalı texnologiyalar tətbiq olunmaqla, yerli xammal ehtiyatları əsasında daxili və dünya bazarlarında rəqabətqabiliyyətli yeni məhsulların, o cümlədən xarici kapitalın iştirakı ilə müştərək müəssisələrin yaradılması strateji istiqamətlər hesab olunmalıdır.

19. Emal sənayesi sahələri qloballaşan müasir dövrdə Azərbaycan iqtisadiyyatına aktiv təsir edir və ölkələrarası rəqabətə təsir edərək iqtisadi artım üçün yeni imkanlar açır. Nəticədə milli iqtisadiyyatın dünya investisiya proseslərindən, dünya iqtisadi təşkilatlardan, dünya maliyyə institutlarından və dünya konyunkturasından asılılığı artır və respublikamız qloballaşan dünyanın ayrılmaz hissəsinə çevrilir.

Beləliklə, emal sənayesi müəssisələrində, o cümlədən qida məhsulları istehsal edən sənaye müəssisələrində sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətinin artırılması respublikamızda bazar iqtisadiyyatının müasir mərhələsinin mühüm məsələlərindən biri hesab olunur. Bu milli ərzaq əmtəə istehsalçılarının mühafizəsinə və bazarın milli məhsullarla təchiz edilməsinə şərait yaradan başlıca konseptual sənəd olmağa çağırılan Azərbaycanın ərzaq təhlükəsizliyi doktrinasının hazırlanması və müzakirəsi dövründə hal-hazırda xüsusilə aktualdır. Həmçinin qeyd etmək lazımdır ki, mikrosəviyyədə, yəni konkret müəssisələr səviyyəsində rəqabətqabiliyyətinin artırılması məntiqə uyğun proteksionizm, milli əmtəə istehsalçılarının mühafizəsi

və bütövlükdə Azərbaycan aqrar sənaye kompleksinin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə aqrar sənaye sektorunun dəstəklənməsi və ixracın mümkün ola biləcək sahələrdə stimullaşdırılması kimi dövlət tənzimləməsinin səmərəli metodları ilə tamamlanmalıdır.

20. İqtisadi rayonlar üzrə yeni bölgü faydalı iş əmsalını daha da artıracaq.

Prezident İlham Əliyevin Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında fərman imzalaması ölkə rəhbərinin mühüm tarixi addımıdır. Bu, ilk növbədə, tarixi ərazilərimizdə yeni iqtisadi, sosial reallıqların gündəmə gətirilməsi deməkdir. Eyni zamanda, dövlətimiz Qarabağa dair müəyyən məsələlərlə bağlı möv¬qeyini çox mühüm rəsmi sənədlə bəyan etdi.

Yeni əsrin əvvəllərindən etibarən ölkəmizdə qəbul və icra edilən regi¬onal inkişaf proqramları çoxcəhətli tərəqqi kompasımız olmaqla, şəhər və rayonlarımızın daha da gözəlləşməsini, əhalinin rifahının yaxşılaşmasını təmin edir. İqtisadi ra¬yonların yeni bölgüsü isə həm özünün konseptuallığı həm də ictimai-siyasi müstəvidə diqqətəlayiq cəhətləri ilə maraq doğurur.

Fərəhli haldır ki, qüdrətli Azərbaycan naminə davamlı və tarazlı şəkildə reallaşdırılan tədbirlərin nəticəsi olaraq dünyada mövqelərimiz get-gedə möhkəmlənir, prinsipial regi¬onal və beynəlxalq məsələlərdə bizim fikrimiz əsas götürülür, sözümüzlə hesablaşılır, səsimiz daha gur eşidi¬lir və mötəbər tutulur. Elmi əsaslara söykənən, siyasi baxımdan bütün meyarları nəzərə alan iqtisadi kon¬sepsiyalarımız ardıcıl olaraq arzu layihələrindən işıqlı əməl tablola¬rına çevrilə bilir. Təsadüfi deyil ki, Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerə layiq görülüb və bu, beynəlxalq miqyasda çox böyük nailiyyətdir.

Bu gün Azərbaycanın inkişafı daha qətiyyətli və məqsədyönlü səciyyə daşıyır. Həyata keçirilmiş islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirib, 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaradıb. Qarabağ torpaqlarının 30 illik erməni işğalından azad edilməsi ilə Azərbaycan Cənubi Qafqazda geosiyasi və geoiqtisadi reallığı köklü surətdə dəyişib. Bu da təbii olaraq, bir çox məsələlər

kimi, ölkənin iqtisadi rayonlar üzrə bölgüsünə də yenidən baxmaq zərurətini yaradıb ki, qu¬ruculuq işləri daha geniş aspektdə planlaşdırılsın və icra edilsin.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**


1. İnnovasiyalı iqtisadi inkişafda rəqabət anlayışına nəzəri yanaşmalar, // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş “Regional idarəetmə: innovativ yanaşmalar və perspektiv imkanlar” respublika elmi-praktik konfransın materialları, -Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, -27 aprel 2015, -2015, -s. 68 – 71

2. Qeyri-neft sənayesi müəssisələrin rəqabətədavamlı iqtisadi inkişafına təsir edən amillərin qiymətləndirilməsi yolları // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci illiyinə həsr olunmuş “Regionların innovativ sosial-iqtisadi inkişafı: reallıqlar və perspektivlər” mövzusunda respublika elmi-praktiki konfransının materialları, -Bakı: Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, -7 may 2015, -2015 -s. 269 – 271

3. Sənaye müəssisələrinin diversifikasiya strategiyasının formalaşmasında vergi planlaşdırılmasının rolunun tədqiqi // Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri (Beynəlxalq elmi-praktik konfrans) –Bakı: Azərbaycan Respublikasının Auditorlar Palatası, -5-6 aprel 2016, -2016, -s. 88 – 90

4. Süleymanov Q.S., Qarayev R.H. Emal sənayesində sahibkarlıq subyektlərinin inkişaf strategiyasının başlıca istiqamətləri // -Bakı: “Beynəlxalq hüquq və inteqrasiya problemləri” elmi-analitik və praktiki jurnal, -2016.№1 (45), -s. 71 – 79

5. Azərbaycanın emal sənayesinin rəqabətədavamlı iqtisadi inkişaf problemləri və onların həlli yolları // İqtisadiyyatın davamlı inkişafı problemləri, perspektivlər beynəlxalq elmi konfransın materialları I hissə, -Sumqayıt: Sumqayıt Dövlət Universiteti, -27-28 aprel 2016, -2016, -s. 298-299

6. Qarayev R.H. Sahibkarlıq fəaliyyətində rəqabət münasibətlərinin tənzimlənməsi məsələlərinə beynəlxalq təcrübədə elmi-

nəzəri yanaşmalar // -Bakı: AMEA İqtisadiyyat İnstitutu Elmi əsərləri, -2016. №3, -s. 96-103

7. Sənaye sahələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsinin yeni metodiki əsasları // -Bakı: "İpək yolu" Azərbaycan Universitetinin Elmi jurnalı, -2016.№3, -s. 21-28

8. Azərbaycanın sənaye sahələrinin rəqabətədavamlı iqtisadi inkişafının başlıca istiqamətləri // -Bakı: "İpək yolu" Azərbaycan Universitetinin Elmi jurnalı, -2016.№ 3, -s.5-11

9. Emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsinin iqtisadi inkişafında rolu // -Bakı: AMEA İqtisadiyyat İnstitutu Elmi əsərləri -2016. №4, -s. 111-116

10. Sənaye sahələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsinin proqnoz modelləri // -Bakı: "İpək yolu" Azərbaycan Universitetinin Elmi jurnalı, -2016. №4, -s. 76-84

11. Azərbaycanda rəqabətədavamlı sahibkarlıq fəaliyyətinin formalaşdırılması yolları // -Bakı: Kooperasiya elmi-praktiki jurnal, -2016. №4 (43) -s. 5-14

12. Rəqabətədavamlı inkişaf ölkənin dayanıqlı iqtisadi inkişaf strategiyasının əsasıdır // -Bakı: AMEA İqtisadiyyat İnstitutu Elmi əsərləri -2016. №5, -s. 7-15

13. Bazar. sahibkarlıq fəaliyyəti və rəqabət // -Bakı: Kooperasiya elmi-praktiki jurnal, -2017.№1 (44) –s. 25-30

14. Azərbaycanda sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin əsas metodları // -Bakı: Kooperasiya elmi-praktiki jurnal, -2017. №1(44), -s. 25 – 30

15. Sənaye müəssisələrində rəqabət qabiliyyətinə təsir edən amillərin tədqiqi // -Bakı: AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, -2017. №2 (mart-aprel), -s. 18-23

16. Sahibkarlıq fəaliyyətinin ölkənin dayanıqlı və davamlı iqtisadi inkişafında rolunun tədqiqi // -Bakı: Kooperasiya elmi-praktiki jurnal, 2017. №3(46) -s. 18-24

17. Garayev R.H. Strategic directions of state regulation of competitive economic development of entrepreneurial activity at processing industry enterprises // -Kiev : Journal of Economy and entrepreneurship, -2017. №12-1, -c.348 – 351

18. Suleymanov G.S., Garayev R.H. Innovative criteria of competietive economic development of entrepreneurial activity in manufacturing industry // -Moskva: Міжнародний Науковий Журнал Інтернаука. Серія: Економічні Науки -2018. №3(11), -c.19-22

19. Sənayenin yeni inkişaf mərhələsi (dünya təcrübəsi) // -Bakı: AMEA İqtisadiyyat İnstitutu Elmi əsərləri, -2019.№1, -s.70-75

20. İqtisadiyyatın innovativ inkişafında Çin təcrübəsi və Azərbaycanın iqtisadi inkişaf perspektivlərində ondan istifadə yolları // -Bakı: AMEA İqtisadiyyat İnstitutu Elmi əsərləri, -2019.№2 səh.42-47

21. Sənaye sahələrinin səmərəli təşkili və idarə olunmasının innovativ mexanizmləri monoqrafiya / Q.S.Süleymanov, G.N.Quliyev, R.H.Qarayev -Bakı: "Elm" Nəşriyyatı -2019, -150 s.

Dissertasiyanın müdafiəsi 16 mart 2022-ci il tarixdə, saat 16:00-da Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az 2000, Azərbaycan Respublikası, Gəncə şəhəri, Atatürk prospekti, 450.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat «16» fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.02.22
Kağızın formatı: 60x84
Həcm: 48673 işarə
Tiraj: 100